# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



Noyabr 2024 il 2 say 23

## BU SAYIMIZDA

Nəzakət Məmmədli / Vətən / 3
Zemfira Məhərrəmli / Şuşanı Aldıq Şuşa Azaddır / 5
Zərəngiz Dəmirçi Qayalı / Şuşam / 6
Taman Yaralı / Qarabağ Azərbaycandı / 7
Təranə Arifqızı / Qarabağı Ürəyimdə Gətirmişəm / 8
Lalə İsmayıl / Apar Zəngilana Məni / 9
Səidə Əliyeva / Alın Yazısı / 10
Nurkan Gökdemir / Sır/Aşk / 11
Həvva Nazim / Daha / 12
Şahnaz Şahin / Bu Dünya / 13
Zeynep Keskin / Senden Beridir / 14
Nazira Boymurodova / Sen Ölmedin, Ben Öldüm Baba / 15
Sevinc Azadlı / Kəlağayım / 16
Vüsalə Vətənxan Mehri / Bilməzəm / 17
Sevinç Qəmbərli / Ən Qorxulu Düşmən, yaxud "Fivin Mübarizəsi" / 18
Mina Rəşid / Yaxşılıq / 21
Rana İslam Değirmencioğlu / Ben Hep 'Birbaşınalık'ı Sevdim / 22
Meryem Küçük / Rüzgârın Yaprakla Vuslatı / 24

TÜRKAY
aylıq ədəbiyyat dərgisi
Baş Redaktor Lütviyyə Əsgərzadə
Məsul Katib Meryem Küçük
Üz Qabıqı Şekli pinterest.com
E mail dergiturkay@gmail.com
Noyabr 2024 il 2 say 23

## Nəzakət Məmmədli

# Vətən

Dünyaya açılan qapımsan mənim,
Ruhumun, könlümün gözüsən, Vətən.
Mayası səndədir müqəddəsliyin,
İlahi qüdrətin özüsən, Vətən.

Qəlbimin işığı, gözümün nuru,
Uludan ulusan, ucadan uca.
Salım qollarımı boynuna, Vətən,
Səni misra-misra öpüm doyunca.

Zirvələr söz açır ucalığından,
Dərələr şahiddir dərinliyinə.
Sənin bərəkətli, barlı torpağın,
Geniş sərhədləri geyib əyninə.

Hünər dünyasına güzgüdü sanki.
Ömür kitabının hər səhifəsi.
Hər bir qarışında duyulur, Vətən.
Zamanın addımı, tarixin səsi.

Ulu əcdadların daşlaşan ömrü,
Boylanır Laçının qayalarından.
Hər daşda bir igid nərəsi yatır,
Qan damır tarixin yaralarından.

Ellərin arzusu qanadlanaraq,
Süzəcək səmada bir gün quş təkin.
Şərəflə qorunan yurd yerlərində,
Ruhu gülümsəyir ulu Babəkin.

Taleyindən keçən qərinələrin,
Alnını bəzəyir ərən imzası.
Sənin qüdrətinə qoşa qanaddır,
Xətai qılıncı, Ələsgər sazı.

Ana laylasından hənir alıbdı,
Ürəkdə alışan qeyrət ocağı.
Doğmalıq ətirli hər qarış torpaq,
Ana qucağıdır, ana qucağı.

Oğul qeyrətini əyninə geyən
Canlı səngərlərin mübarək, Vətən.
İlahi sevgiylə yoğrulubdusa,
Hər duyğu - Vətəndi, hər ürək - Vətən.

Dərbənd qalasından Təbrizə qədər,
Uzanan bu yurdun səsi içimdə.
Mənim Şah babamın, Şah Xətainin,
Əbədi harayı, ərzi içimdə.

Hər bahar gələndə sızıldayacaq
Qırılmış budağın qönçə ağrısı.
Bilirəm qəlbində heç uyumadı
Zəngəzur həsrəti, Göyçə ağrısı.

Ana laylasına hopan məhəbbət
Sənin təravətin, ətrindi, Vətən.
Millətin ruhunda, elin dilində,
Daim əzizlənən xətrindi, Vətən.

Ömrünə güzgüdür oğul qeyrəti,
Cürət qanad açıb hər qarışında.
Vətən əsgərinin məhəbbətindən,
Üzündə sevgi var dağın, daşın da.

Sənin qeyrətini çəkən oğullar
Ulu qüdrətini duyur dərindən.
Durub keşiyində igid ərənlər,
Qeyrət ətri gəlir səngərlərindən.

Çırağa bənzəyir Vətən torpağı,
Hər əsgər ürəyi pərvanəsidir.
Bu doğma yurdumun qeyrət nəğməsi,
Vətən əsgərinin addım səsidir.

Əsgər baxışları sevgiylə öpür
Vətən torpağını təbərrük kimi.
Yurdu bədnəzərdən qorusun deyə
Dolanır başına üzərrik kimi.

Əsgərin gözündə güzgülənir, bax,
Meşə də, dəniz də, dərə də, düz də.
Sərib gözlərinin yuxusunu o
Körpələr uyuyan beşiklər üstə.

Qartal baxışından hənir alıbdır
Quşqonmaz qayalar, mamırlı daşlar.
Torpağın, ağacın, otun içindən
Hər gün bir əsgərin çığırı başlar.

Böyük məhəbbətlə səngərdə durub,
Qəhrəmanlıq axır damarlarında.
Vətən qeyrətini əyninə geyib
Yayın bürküsündə, qışın qarında.

Onun qətiyyətli addım səsinə
Açıb yaxasını hünər yolları,
Qəlbində alışan Vətən sevgisi
Əridir üstünə ələnən qarı.

Vətən əsgərinin kirpiklərindən
Gecə ulduz-ulduz asır özünü.
Tətikdə dayanan barmağı üstə
Alagöz səhərlər açır gözünü.

Ömrünün-gününün hər məqamında
O, yurdu düşündü, Vətəni andı.
Qəlbində şərəflə dalğalanır, bax,
Vətən torpağına sədaqət andı.

Böyük dastanlara sığışan deyil
Vətən əsgərinin Vətən alqışı.
Hər daşı, qayanı çiçək sanaraq
Kəpənəklər kimi qonur baxışı.

Durub keşiyində müqəddəsliyin,
Böyük amalıyla müqəddəsdir O.
Ulu babaların ruhundan qopan
Canlı bir haraydır, ulu səsdir O.

Bu səs qanımızın səsidi, qardaş,
Haqqın dan yerindən yol gəlir bu səs.
Hünər bayrağıtək, qeyrət himnitək,
Vətən göylərinə yüksəlir bu səs.

Bu səsin işığı, bu səsin nuru,
Gün kimi ələnir yurdun başına.
Bu səs bir qılıncdı, ovxarlı qılınc,
Qurşa, yurd uğrunda, yurd savaşına.

Bu səslə durulur Vətən suları,
Bu səsdən ər oğlu bir Mən görünür.
Bu səs gündoğanım, günbatanımdır,
Bu səsdən bir böyük Vətən görünür.

Hər əsgər Vətənin bir məğrur səsi,
Hər səsin müqəddəs bir sərhəddi var.
Vətənin sərhədsiz səsidir, dostum,
Vətən qeyrətini çəkən oğullar.

Əsgərdən başlanır Vətən duyğusu,
Harda əsgər varsa orda Vətən var.
Əsgər addımını laylatək duyur,
Torpağın altında şəhid yatanlar.

## Zemfira Məhərrəmli

# Şuşanı Aldıq Şuşa Azaddır

Komandirin amiranə səsi eşidildi: "Düşmənin əlində olan Ağdağ postunu almaq üçün irəli!" Tağım komandiri, leytenant Ərtoğrul Nadirlinin rəhbərliyi ilə manqalarda birləşən əsgərlər göstərilən istiqamətdə irəliləməyə başladı. Düşmənlə bizim mövqelərimizin arasındakı neytral ərazidə çoxlu mina basdırılmışdı. Minaların əksəriyyəti üstüaçıq vəziyyətdə idi. Əsgərlərimiz, kimsə minanı tapdalayarsa, başqaları zərər çəkməsin deyə, ara məsafə saxlayaraq irəliləyirdi. Bir müddət neytral zonada qaldılar. Bu minalanmış sahəni qət etmək elə də asan deyildi. Çox çətinliklə olsa da, ölüm saçan ərazidən salamat keçə bildilər.

Erməni silahlılarının postu döyüşçülərimizin hərəkət etdiyi yüksəkliyin alt tərəfində idi. Üç qrupda birləşən əsgərlərimiz düşmən mövqeyinə hücuma keçdi. Cəsarəti, hünəri ilə seçilən əsgər Fərid Aslanov döyüşçü dostları ilə çiyin-çiyinə düşmən üzərinə şığıyırdı. Əsgərlər bu 22 yaşlı, ucaboylu, pəhləvan cüssəli gənci igidliyinə görə "Aslan" deyə çağırırdı. Samuxda doğulmuş, Gəncə Dövlət Regional Kollecinin idman fakültəsini bitirmiş, həqiqi hərbi xidmətdə olmuşdu. Ordudan qayıtdıqdan dörd ay sonra uzun müddətli hərbi xidmətə qərar vermişdi. İkinci Qarabağ savaşı – Vətən müharibəmiz başlanan gündən barıt qoxulu cəbhələrdə idi. Ölüm dəfələrlə Fəriddən yan keçmişdi. Bu sənədli hekayəmizin qəhrəmanı yaralanmış, aldığı xəsarətdən üz-gözü, ayaqları, qolları qançır olmuşdu. Yenidən döyüşlərə atılmışdı. Yaralıların, şəhidlərin ön xətdən çıxarılmasına ən çətin şəraitdə kömək göstərmişdi.

***

Fəridgilin taboru Kəlbəcər döyüşlərindən sonra Daşkəsənə gəlib meşədə yerləşmişdi. Komandanlıqdan əsgərlərə belə bir sorğuyla müraciət etmişdilər: "35 yaşınadək olanlar sırasından kim könüllü surətdə xüsusi təyinatlıların tərkibində vuruşmaq istəyir?" Fərid ilk olaraq irəli çıxmış, onun ardınca 32 gənc döyüşçü də hərbi əməliyyatlara qatılmaq istədiyini bildirmişdi. Onların arasında ailəlilər də vardı, nişanlısı yol gözləyənlər də, Fərid kimi subaylar da.

Axşam saatlarında "Ural" maşını könüllüləri aparmaq üçün döyüşçülərimizin yerləşdiyi düşərgəyə yaxınlaşdı. Sanki dözümlülərin yarışı başlanmışdı. Gənc əsgərlərin hər cür çətinliyə, gərginliyə, aclığa, susuzluğa tab gətirməsi yoxlanılır, onlar sınaqdan keçirilirdi.

Fəridin dediklərindən:

–Dözüm imtahanından üzüağ çıxdıq. Şəmkirə, Beyləqana, oradan isə Hadruta gedəcəkdik. Sözün əsl mənasında, çətin bir yolçuluğa çıxmışdıq, bütün tapşırıqları canla-başla yerinə yetirirdik. Hadrutda bir gün qaldıq. Bizi həsrətində olduğumuz Şuşaya yönləndirdilər. Öncə Laçın dəhlizinə doğru irəliləyir, dərin sızma əməliyyatlarında iştirak edir, kəşfiyyat işi aparır, ərazidəki bütün şübhəli nöqtələri hərtərəfli, xırda detallarınadək öyrənirdik. Bu strateji əhəmiyyətli dəhlizə çatana kimi səkkiz gün piyada yol qət etmişdik.

Dörd tərəfimiz erməni postları idi, yağılar bu dəhlizədək hər iyirmi metrdən bir səngər qurmuşdular. Yorğun olsaq da, normal qidalanmasaq da, "uf" demədən düşmənin üzərinə yeriyirdik. Bizə atırdılar, yaralanırdıq, yenə gedirdik. Qorxmadan, "Allahu əkbər" deyib onların üzərinə şığıyırdıq. Ermənilər bu sədadan vahiməyə düşüb, çığırışır, hərbi maşınlara doluşub qaçmağa üz qoyurdular. Bir neçə gün bu ərazidə qaldıq, yaralıları təxliyə edərək, "sanitarka" maşınlarında apardılar. Əsas yolları tutmuşduq ki, yağıların qarşısını kəsək, Şuşaya girmək asanlaşsın.

Şəhərə girəndə artıq dan yeri ağarırdı, hər yer aydın-aşkar görünürdü. Bir qrup Şuşaya kanatla qalxmışdı, digər qrup isə şəhərə Şuşa həbsxanasının yanından daxil olmuşdu. Halbuki erməni tərəfi bizi Laçın dəhlizi istiqamətindən gözləyirdi. Bir də ayıldılar ki, şəhərin içindəyik. Şuşa səmasında cövlan edən "Bayraqdar"lar, PUA-lar da düşmənə göz açmağa aman vermədi. Onlar vahimə, qorxu-ürkü, təlaş və çaşqınlıq içindəydi. Ermənilər canlarını götürüb, döyüş texnikasını, silahlarını tullayıb güman gətirdikləri Xankəndi istiqamətinə qaçırdılar.

Başının hayına qalan düşmənin dabanına tü-

pürüb qaçmasına baxdıqca sövq-təbii Xocalı soyqırımını xatırladım. İllər öncə törətdikləri qanlı Xocalı faciəsində günahsız dinc sakinləri doğma yurdundan necə qovub çıxarmışdılarsa, indi özləri də çarəsiz duruma düşmüşdülər. Azərbaycan əsgərinin üstünlüyü ilə hərb salnaməmizə yazılan döyüşlərdə, əlbəyaxa vuruşlarda əzilmək, məhv olmaq durumuna. "Dəmir yumruq" öz sözünü demişdi. Düşməndə vahimə hissi yaradan xüsusi təyinatlılar yüksək döyüş hazırlığı, xüsusi savaş taktikası ilə erməni vandallarının qəniminə, onlar üçün əsl kabusa çevrilmişdi.

***

Artıq noyabrın 8-i idi. Şuşada gedən döyüşlər səngimiş, Qarabağın tacı olan bu qala şəhəri şəhidlərimizin canı-qanı, qazilərimizin hünəri ilə düşməndən təmizlənmişdi. Zəfər savaşımız, cəngavər oğullarımızın bizə bəxş etdiyi qalibiyyət ab-havası ürəklərə bir rahatlıq, hüzur gətirmişdi. Fərid də döyüşçü dostlarının arasındaydı. Üzündən-gözündən yorğunluq yağsa da, özünü və cəbhə dostlarını mənən güclü, yenilməz hesab edirdi. Silah yoldaşları kimi, o da evə zəng edib atasına belə demişdi: "Şuşanı aldıq, Şuşa azaddır!" Neçə gündən bəri intizarla gözlənilən bu zəng atası Farizi, anası Şəhlanı kövrəltmiş, onlara dağ boyda sevinc bəxş etmişdi.

Müdrik Sərkərdəmiz, hünərvər əsgər və zabitlərimiz möhtəşəm Zəfər savaşında gerçək tarix yazmışdı. "Aslan" ləqəbli döyüşçümüz 30 illik həsrəti 44 gündə bitirən rəşadətli Azərbaycan Ordusunun əsgəri olduğu üçün qürurludu. Zəbt edilmiş yurd yerlərimizin, o cümlədən Şuşanın əsarətdən qurtulması naminə döyüşlərə qatılmaq üçün ürəyində hələ uşaqlıq, yeniyetməlik çağlarından yaşatdığı ən böyük istəyi, ülvi arzusu həyata keçmişdi.

Ermənistanın işğalı altında olan əzəli torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşməndən təmizlənməsi uğrunda gedən hərbi əməliyyatlarda fədakarlıq, şəxsi igidlik və şücaət göstərmiş Fərid Fariz oğlu Aslanovun "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunması bu mübariz Vətən oğlunun layiqli haqqıdır.

## Zərəngiz Dəmirçi Qayalı

### Şuşam

Şuşam, sənə qonaq gəlim,
Arzum gözümdə qalmasın!
Həsrət gözlərim yol çəkir,
Bəs nisgilim azalmasın?

Gülünü şehli dərərəm,
Sinəmin üstə sərərəm,
Səhər tezdən su çilərəm,
Yollarında "toz olmasın"!

Qarabağ tarlı-qavallı,
Gözəlləri tirmə şallı,
Şikəstəli, cah-calallı,
Coşan səsin, sozalmasın!

Molla Pənah, sədan gəlsin,
Xanqızı, öz anam gəlsin,
Seyid, Cabbar, ya Xan gəlsin:
"Aralıqda söz olmasın"!

Zərəngiz heyran halına,
Gül səpilib sağ-soluna,
Bük məni güllü şalına,
Sevənlərim az olmasın!

## Taman Yaralı

# Qarabağ Azərbaycandı

İlham dönməz sərkərdədi,
Qanlı döyüş səngərdədi,
Hünər, qeyrət əsgərdədi,
Zəfər Azərbaycanındı.

Qarabağ Azərbaycandı!
Qarabağın  hər yanında
Şəhidlərin al qanında,
Zəfər bayrağı sancıldı,
Şuşa Azərbaycanındı.

Qarabağ Azərbaycandı!.
Yumruq  kimi birləşmişik.
Kafirlərə dağ çəkmişik.
Dünyaya bəyan etdik biz.
Qələbə Azərbaycnındı.

Qarabağ Azərbaycandı!
Əldə Quran ayaqyalın,
Yanında Mehriban xanım.
Diz çökdü Bayraq asıldı.
Ağdam Azərbaycanındı.
Qarabağ Azərbaycandı!

**Təranə Arifqızı**

# Qarabağı Ürəyimdə Gətirmişəm

Zaman çatıb, deyən kimi,
Sərkərdəmin -Qalx!-səsinə
oyanmışam, səs vermişəm.
Yetər artıq, ay qəsbkar,
ay zülmkar, bəs demişəm!
Qaniçənin yaddaşına yazılacaq,
Məzarını qazdıracaq dərs vermişəm.
Xudafərin nəfəsini Xan Arazın küləyində
Gətirmişəm, Vətən sənə!

Nifrətimi top ağzında yağdırmışam yağış kimi,
Sıldırımlar üzərində, meşəlikdə, cəngəllikdə,
əlbəyaxa döyüşlərdə
susdurmuşam namərdləri bir daş kimi.
Bütün dünya şahid olub,
haqq uğrunda savaş kimin?
Mən haqqımı Allahımla, mələyimlə
Gətirmişəm, Vətən sənə!

Hər addımda bir kəndimi,
Hər nəfəsdə bir daşımı,
bir zirvəmi, bir bəndimi,
Hər atəşdə əl qoyduğum
Quranımı, pir andımı,
Hər ocağa bərəkəti çörəyimdə
gətirmişəm, Vətən sənə!

Otuz ilin ağrısını, acısını,
Həsrətini, sancısını
Qırx dörd gündə bitirmişəm.
Qırx dörd günün hər anında
Gözlərimi, ayağımı,
əllərimi, qollarımı,bədənimi itirmişəm.
Əvəzində...əvəzində
Bütövləşib böyümüşəm.
Yenilməyən ordu adı, qazi adı,
əbədiyyət yollarını fəth eyləyən şəhid adı,
qalib adı qazanmışam.
Anaların, bacıların üzağlığı
Namusumu, vicdanımı,
Son borcumu qeyrətimdə
gətirmişəm, Vətən sənə!
Bir çiynimdə odlu silah,
bir çiynimdə dost yaralı,
Bir gözümdə düşmən adı,
bir gözümdə vaxt daralır,
Sal daşları əllərimlə didə-didə,
Hər anımda ölüm qoxan o yolları gedə-gedə,
Şəhidimi qucaqlayıb kürəyimdə
gətirmişəm, Vətən sənə!

Düşmənin talan etdiyi
uçuq-sökük divar olub səngərimiz,
yıxıb düşmən xəyalını yerişimiz, ləngərimiz,
içimizdə Vətən eşqi, nə olacaq əngəlimiz?
hər oğulun qisasını
yumruq kimi biləyimdə
gətirmişəm, Vətən sənə!

Məzar-məzar, şəhid-şəhid
Çoxaltmışam, qaytarmışam,
Yağı düşməndən almışam
Mən bu Vətən torpağını.
Iti qovan tək qovmuşam
Doğma yurddan şər, yağını.
Birdəfəlik bu zillətə, xəyanətə
Son qoymuşam.
Kəsmişəm ağ yollarımdan
Onun qara ayağını.
Tarıx deyə yazılacaq bu dastanı
söhbətimdə gətirmişəm, Vətən sənə!

Bayrağımı qaya üstə, dağ başında
Zirvələrdə ucaltmışam,
Azanımın gür səsini məscidlərdə,
türbələrdə ucaltmışam,
Himnimizin hürr səsini fəxarətlə, dəyanətlə,
Qürur dolu avazımla
azad olan ellərimdə ucaltmışam.
Qarabağı vətən boyda ürəyimdə
gətirmişəm, Vətən sənə!

## Lalə İsmayıl

# Apar Zəngilana Məni

O yerdə billur aynam var,
İçində yaşıl sonam var,
Süsəntək zümrüd anam var,
Dartıb salma kola məni,
Apar Zəngilana məni .

Xustubun sərin havası,
Tursunçayımın laylası,
Qılıncyerinin talası,
San közərən lala məni,
Apar Zəngilana məni.

Açıb gen sinəsin Aya,
Oxçu haray versin haya,
Qonaq eylə Bestçaya,
Salsın haldan hala məni,
Apar Zəngilana məni.

Qorxu görünməz gözümə,
Ayaq yalın sal izinə,
Tıkanlar batsın dizimə,
Dar qəfəsdən ala məni,
Apar Zəngilana məni.

Bərgüşadda açılsın yaz,
Həkəridə dillənsin saz,
İki qolda gülsün Araz,
Həsrət, vermə yola məni...
Apar Zəngilana məni.

Göydə ağ bulud sürünə,
Sis qaça, güman görünə,
Qarlı dağ, duman yerinə,
Çal, başına dola məni,
Apar Zəngilana məni.

Yazıdüzü geniş sinə,
Ağuşuna ceylan enə,
Çırpınım köksündə yenə,
Ötür sağdan sola məni,
Apar Zəngilana məni.

Göy buludlu yaylağına,
Al şəfəqli oylağına,
Yaşıl çinar yarpağına,
Qurban eylə bala məni,
Apar Zəngilana məni.

Haqq sözündə olmaz yalan,
Yada düşsün yada salan,
Qəlb evimi eylə talan,
Çap, elimdə tala məni,
Apar Zəngilana məni.

Bircə kərə bax Allaha,
Ümid azalır sabaha,
Lalə batmasın günaha,
Eşq oduna qala məni,
Apar Zəngilana məni.
Lalə İsmayıl.

## Səidə Əliyeva

# Alın Yazısı

Həlim təbiət, kövrək sadəlövhəm
Qar, yağışa həsrət susuz səhrayam.
Nə tez tanıdı? Yaxamı kədər, qəm...
Haradan bilirdin mən üzüyolayam?
Ey tale qismətim, alın yazısı.

Heç doğulmamış yazıldın alnıma,
Ana laylası tək hopdun qanıma.
Hökmünü göstərdin hər addımımda,
Yaxşı ki, dəymədin sevinc payıma,
Heç vaxt dəyişməyən alın yazısı.

Kədərim, sevincim, ömür tacımsan,
Bəzən şirinim, bəzən acımsan.
Ən yaxın sirdaşım, anam, bacımsan,
Həyatda əbədi ehtiyacımsan,
Arzu, amalımsan alın yazısı.

Addım-addım izləyər hər çağımda,
Kəsdirib oturar can otağımda.
Günəş gizlənəndə, ay nur saçanda,
Mənimlə baş-başa gecə yatanda,
Gündüzlər yanımdasan alın yazısı.

Dərədi, təpədi ömrün yolları,
Bitib tükənməz sonsuz arzuları.
Pərən-pərən dağıdar xəyalları,
Barı uğurla aça sabahları
Tanrı möcüzəsi, alın yazısı.

Qanadlanar hardan-hara xəyalım,
Dünyanın o başına arzularım.
Yaz nəfəsi, ilk çiçəyi baharın
Ümid çırağım, şirin duyğularım
Tale əfsanəsi, alın yazısı.

## Nurkan Gökdemir

# Sır/ Aşk

sözlerin tükendiği
suretlerin silindiği
epriyen bir dem
ve Aşk!..

naz rüzgârları
tomur kokusu
dip derya sesi
misk nefesiyle
gelmekte imdi
Kalp şehri'ne …

zümrüt gece…
nice yakut düşlere
inci mercan sevilere
billur şiirlere gebe

zümrüt gece…
eşsiz bir kıyamete
nice renk ahenge
göğ şölenlerine
uçmağlı hislere ....

ve işte Sır'la
büyüyen nâr
şaşkın/ dağılan
yitimlere yakın
savruluşlarıyla
yorgun alazlar …

koyu bir sükut
çoğalan merak
içre sığmayan …

som dem artık
efsun ve Aşk'ta
meçhul menzil
an/ kayboluşta …

Canan'a râm
vuslata hasret
geceye meftun
o narî kalpler!
konuşur imdi …

anlatırlar bize
ötelerin diliyle
ezelî sır/ Aşk'ı …

Həvva Nazim

## Daha

Çıxıb getdin körpüləri yandırıb,
Rahat-rahat məndən ayrı gəz daha.
Kəlmələrim qəhərində boğulur
Qubar tutub ürəyimdə söz daha.

Od salmışdın gedişinlə bu cana,
Qığılcımı səpələndi hər yana,
Geri dönüb bir qəlbimə baxsana,
Sönür orda eşq adlanan köz daha.

Sevən ürək yorğun düşüb, yorulub,
Qücaqlayıb əcəlinə sarılıb,
Bir sevdaya dar ağacı qurulub,
Gətir indi beşcə arşın bez daha.

## Şahnaz Şahin

# Bu Dünya

Mən bilirəm necə olur ayrılıq
Gündüz olur, gecə olur ayrılıq.
Saçımızda küçə-küçə ayrılıq,
İçimizdə bir qəhərmiş bu dünya.

Gözümüzdə gecələyir,yuxlayır
Ruhymuzu silkələyir, yoxlayır
Kövrələndə bizdən betər ağlayır
Şadlananda bəxtəvərmiş bu dünya.

Alıb gedər nə verdisə əlindən
Gözün doymaz çiçəyindən, gülündən
Geyinərsən ipəyindən, tülündən
Son gedişdə ağ kəfənmiş bu dünya.

Əldən düşən oyuncaqmış sən demə
Olasılar olacaqməş sən demə.
Bir quruca oduncaqmış sən demə
Daha sorma nə təhərmiş bu dünya.

## Zeynep Keskin

# Senden Beridir

Olmak başka şehirde
Görmek yeşilde
Mavide
Seni görmek her tonda
Her çağrılan sese sen diye koşmak
Sen diye sevmek kuşları
Baharı, aydınlığı, sabahları.

Başka şehirde uyanmak
Seni sevmek gibi
Başka sehire uyanmak
Şehir için değil
İnan
Sev diye değil
Sevildiğini bil diye
Şehre bürünmek
Şehirle beklemek seni
Şehirle çağırmak.

Karanlık senin yokluğundur
Aydınlanır, düşleyince seni acılarım
Acılarla sürmek senin yokluğunu
Yalnız senindir bu toplanan sokaklarda gördüğün lambalar
Yalnız seni çizer mehtaba tutulan aynalar
Girse sesin
Senden önce senden sonra
Kırılıverir aynalar
Düşer aydan maviliklere doğru yağmurlar
Gün ışır
Senden beri.

Senden beri bu sızı bu elem
Senden beri köşe kapmaca oynar akreple yelkovan
Senden beridir
Kalbimin üstünde uçuşup duran
Kanadı kırık serçe kuşun telaşı
Durdurak bilmeden
Koşan bu sevincim
Senden beridir

Nazira Boymurodova

# Sen Ölmedin, Ben Öldüm Baba

Babasızın rengi solarmış
Cismi yaşar, ruhu ölürmüş
Babasızlık dertmiş, kedermiş
Neyleyim ki, bu bir kadermiş
Hayat camı bir gün dolarmış.

Sen ölmedin, ben öldüm baba
Gözyaşlara böğuldum baba.
Uçamadım, çırpındım baba.
Denizlere savruldum baba.

Deniz idim, duruldum baba
Ben göğsümden vuruldum baba.
Sen hayatken, çocuktum baba
Sen öldün, ben büyüdüm, baba.

## Sevinc Azadlı

# Kəlağayım

Bir üzük içindən asanca keçən,
Mədəni irsimdə, var kəlağayım.
Xalqımla bərabər əsrlər keçən,
Nənəmə, anama yar kəlağayım.

Təbiət örnəyi, ar nişanəsi,
Barama qurdunun bar nişanəsi,
Hər eldə, obada var nişanəsi,
Bəyazı başımda qar kəlağayım.

Rəngini sumaqdan, narıncdan alan,
Qarağat, zəfəran, zirincdən alan,
Heyrəti, soğanı, yeləni olan,
Adıyla dünyaya car kəlağayım.

Naxışı incədən, incə olanım,
Saya butasında, şah doğulanım,
İpək saplar ilə tül yoğrulanım,
Örtüm mən başımı, sar kəlağayım

Vüsalə Vətənxan Mehri

# Bilməzəm

Kim deyir yarın cəfasın çəkməsəm qəm bilməzəm?
Qəmlər içrə ahu-zaram, qəlbə mərhəm bilməzəm.

Mən ki yarın hər bəlasından sitəmlər çəkmişəm,
Hər sitəmdən min sitəm doğmuş ki, xoş dəm bilməzəm.

Qoymuşam mən dəmbədəm həm hicri-aləmdən qədəm,
Vəslə yetməkdir muradım, özgə bir qəm bilməzəm.

Keçdi ömrüm daği-hicriylə fəğan etməklə çün,
Bu səbəbdən işrətü eyş içrə aləm bilməzəm.

Gərçi mehrabımdır ol qəlbimdə tutmuşdur qərar,
Mən bu sevda ilə Mehri, qəlbə məhrəm bilməzəm.

## Sevinç Qəmbərli

# Ən Qorxulu Düşmən, yaxud "Fivin Mübarizəsi"

-Bəs danışmasam əgər məndə ən gözəl olan nədir?

-Saçların gözəldir...

Sözlərinlə toxundun saçlarıma, barmaqlarınla toxuna bildin ruhuma. Bəstələr yaratdın gözəl-gözəl, mən onları eşidə bildim, duya bildim sadəcə, onları nota köçürə bildim. Müəllif sənsən, hər kəlməmsən, sən həm müasirliksən, həm milliliksən, müasirliklə milliyin vəhdətisən. Sözlərinin izi qaldı saçlarımda. Heç sözün də izi qalarmı saçda görəsən?! Qalar, çünki hər aynaya baxdığımda o izi görürəm, o dərin izi çox gözəl görürəm mən. Bir möcüzəmi oldu görəsən, nə baş verdi. Saçlar sözmü anlayır, saçlar xoş sözü anlayırmı yoxsa, canlıdırmı onlar?! Sənin xəyalından bunu eşidəndən sonra, qaçdım güzgünün qarşısına tez, mən onları tanımadım heç, bu nə uzanma, bu nə parlaqlıq görəsən. Ömrümün beşinci onilliyinə doğru gedirəm artıq, amma mən onları heç görməmişəm ki, mən onları heç sevməmişəm ki. Bilsən, nə qətliamlar eləmişəm, nə kökündən kəsmələr, nə nifrət eləmələr. Mən onların gözəl olduğunu bilmirdim, mən elə bilirdim ki, ta balacalığımdan eşitdiyim kimidir onlar, "qıl kimidir, pişik tükü kimidir, doğulanda yaxşı imiş, yaşımda qırxandan sonra çox pis çıxıblar". Nə elədin sən, həyatımda heç bir cümlə məni bu qədər kövrəltməyib hər yadıma düşəndə: "Saçların gözəldir".

Məşhur uşaq romanının qəhrəmanı olan Balaca özünü bu dağ boyda dünyada çox tək-tənha hiss elədiyi üçün xəyali bir "dost" uydurmuşdu-damda yaşayan Karlsonu, yoxsa səni də mənmi uydurdum, Göy Adamı, ya xəyalsan, ya gerçəksən, bir az xəyal, bir az gerçək. Amma o dəqiqdir ki, sən bir "insan" deyilsən, yerli deyilsən, Yerdən deyilsən. Çünki Sən bir planetsən (əzizim (icazə ver bunu sənə yazılarımda deyim heç olmazsa), inkar eləmə, etiraz eləmə, çünki bu belədir). Saturn kimi bir planet həm də.Bu planetin halqaları onu digər planetlərdən möhtəşəmliyi ilə fərqləndirir. Eynən sənin kimi. Hələ milyon illər əvvəl Saturn bügünkü formasını alan zaman ətrafında olan hər şeyi öz cazibəsinə salmışdır.

Sənin kimi olsunmu?! Arzuya bax, sevgilim, tellərindən incəmi, söylə ürəyincəmi (Müşfiq)?! Bilirsənmi, mən indiyədək oxuduğum bütün əsərləri, eşitdiyim bütün mahnıları, bildiyim bütün şeirləri yeni-yeni dərk eləməyə başlayıram, rənglərində olan bütün tonları, keçidləri, ən incə çalarlarınadək duymağı istəyirəm..

Cinayət üstündə tutulub məhkum olunan mən, səbəbkar Sən. Səbəbsən, günahkar mən. Cəzam ağır oldu, ömürlük oldu, ölümlük oldu, məhkumluğum sənə həmişəlik oldu, peşmanammı, əsla, narazıyammı, deyiləm, bəlkə son sözüm var.

Mən deyərdim ki, cəzamı artıq eləsin, amma yeri yoxdur ki daha. Sən hakimə belə seçim qoymadın, nəinki mənə. "-Fəzilətlə gülümsə, yanağındakı batıqcanla...- Fəzilət nə deməkdir ki, batıqca nədir? -Güzgüyə bax, görəcəksən. -Baxıram, amma görmürəm, mən xeyli vaxtdır ki, özümü görə bilmirəm". Mükalimə də tez bitdi, xəyalın tez gedən kimi, mən isə istəyirəm ki, bitməsin o heç, sonsuz olsun, sonsuz. Daha deyə bilmədim ki, "ay zalım (niyə gülürsən, yalan ki deyil), mən güzgüyə baxıram baxmağına, amma özümü görmürəm, səni görürəm, Səni. Surət mənimdir, əks sənin. Sənsən mən, bəs mən kiməm görəsən. Sağdasan, solda sən, gecə sən, gündüzsən, qübbə sənindir, yer mənim, sözlər sənin, mətn mənim, olsunmu, olmasınmı?! Firon taxt-tacının varisi, doğmalarının və bütün Misir xalqının yeganə ümid yeri şahzadə Ahmos həyatda ən böyük düşməni olan hökmdar Apopinin gözəl qızı Amenridesi belə güclü bir sevgi ilə sevirdi, çox-çox aşiq idi ona, həm aşiq idi, həm də heyran. Ayrılığın labüd olduğu anda kim olduğunu belə unudub ağlını itirəcək qədər əzab çəkirdi:

-Amenrides...ayrılıqdan danışma. Sənin asanlıqla dilinə gətirdiyin bu söz qanıma kimi işləyib, məni dəli vəziyyətinə salır. Amenrides...atanın qapısına kimi bütün qapıları açmağa və atandan səni istəməyimə izin ver.

-Təəssüf ki, sən dediklərini dərk etmirsən.

Sənə elə gəlir ki, atam onu məğlub edən, doğulub boya-başa çatdığı, taxtına oturduğu ölkəsindən sürgün edən müzəffər hökmdara öz qızını verməyə razı olacaq?..Mən atama səndən daha yaxşı bələdəm və bilirəm ki, o, bu işə razı omayacaq. Bizim səbr etməkdən başqa çarəmiz yoxdur...

Bəzi eşqlər ayrılığa məhkumdur. Məmməd Arazın dediyi kimi, "bir taleyin oyununda cütlənmiş zərik, yüz il qoşa atılsaq da qoşa düşmərik". Məsələn, o qədər çətinlikləri dəf edə bilən, cəmiyyətin diktə elədiyi bütün "qaydalara" qarşı duraraq hər bir maneəyə sevgiləri ilə qalib gələn böyük Azərbaycan oğlu Əli və gürcü gözəli Ninonu qovuşdurdumu həyat, ayırdı, ölüm ilə ayırdı (Qurban Səid), Əli həm Vətəni, həm sevgilisi qarşısında dürüst və mərd hərəkət elədi. Ürəkdən sevdiyi, namərd erməni "dostu" (bu fakt qarşısında təəccüb hissinizin olmadığına əminəm) tərəfindən qaçırılıb adı ləkənmiş Ninonu ortada qoymadı, atmadı, kənarda saxlamadı (Qurd Seyidin xristian qızı Şuranı etdiyi kimi), evinin xanımı elədi,

başına tac elədi, övladının anası olmağını istədi. Eyni böyüklüyü və mərdliyi daha böyük eşqi olan Vətəni qarşısında da elədi, düşünmədən özünü ona qurban edərək.

Yaxın keçmişdə şahidlik elədiyimiz müharibənin şəhidləri kimi. Ruhları qarşısında baş əyirik, onlar evdən getmədi, onlar eldən getdi, biz həmişə onlara borçlu qalacağıq. Mənim üçün eşq "Leyli və Məcnun" əfsanəsi deyil, "Romeo və Cülyetta" uydurması da deyil, mənim üçün eşq "Şəhidlər xiyabanı"nın ən baş tərəfində əbədi olaraq qoşa uyuyan İlham və Fərizə sevgisidir. Heç bir şeyi düşünmədən özünü uğruna fəda edəcək qədər böyükdür eşq. Əllərinin ayrı, gözlərinin ayrı, ürəyinin isə

bir ayrı darıxmasıdır eşq. İlham ilə Fərizəni intizarla, sevgi ilə yolunu gözlədikləri körpələrinə atalıq eləmək, analıq eləmək sevincini yaşamağa imkan verdimi tale, məşum 20 yanvar gecəsi günahsız qurbanlardan oldu İlham, sevdiyinin ayrılığına dözə bilməyib intihar elədi Fərizə. Mən intihara haqq qazandırmıram, kaş ki, övladını dünyaya gətirib böyütsə idi Fərizə, nə özünə, nə ona qıymasa idi.Amma

insanların nə hiss elədiklərini, nə yaşadıqlarını bilmədən müzakirə eləmək, mühakimə eləmək də ayrı bir günahdır, bilmirdinizmi?! Hökmdar Ahmosun və şahzadə Amenridesin qadağan olunmuş eşqi də belə idi, ayrılığa məhkum. Onlar niyə ayrılmalı idilər, bu qədər sevərkən ayrılıq niyə? Bunun bir çox səbəbləri var idi. Birincisi, Ahmos onu çox-çox sevən, sədaqətli, sevgi və şəfqət dolu kraliça Nefertari ilə evli idi. Ata-baba torpaqlarını səhralardan gəlmiş vəhşi hiksosların işğalından azad edərkən Ahmos oğul atası olması barədə sevincli bir xəbər də alır.

Bir hökmdar olsa belə, Ahmos evli olduğu xanımdan sevgilisinə olan hisslərini və xiffətini gizlətməyə çalışırdı, onun heysiyyətinə toxunmaqdan, onu incitməkdən çox çəkinirdi. Həm də şahzadə Amenrides onun ən qatı düşməni və babası Misir hökmdarı Sekenenranın qatili Apopinin qızı idi.

Reyhan. Çoxmu təəccübləndin?! Ki, eşq hara, reyhan hara (gülürəm, parlaq və içdən bir gülüşlə, sən də güldün, gördüm bunu mən, bil yəni, bil ki, sənin ətrafında olan güclü, geniş enerji halqalarını görürəm mən, səsində olan ay işığını həmçinin. Sən dadına doyulmayan söhbətlərini bitirəndə belə mən səni eşitməkdə davam edirəm. Səsinin havada yaratmış olduğu dalğaların aram-aram vurduğu ləngərləri duyuram, ən sonuncu zərif və cəsarətsiz titrəyişlərinə qədər iliklərimdə hiss edirəm onları mən.Gülməyin də gözəldir, gülümsədinmi sən yenə. Görürsənmi yazının sehrini, Göy Adamı, məsafədən belə səninlə o dialoqu yarada bilirəm mən). Romanın bir neçə yerində bu bitkinin adına rast gəlirik: "Kəndlilər ən uzaq zəmilərdən əllərində palma şaxları, reyhanlar və pivə bardaqları ilə axışıb gəlmişdilər"; "Firon kəcavələri nizə atanların cərgələri arasından keçib şəhər qapısından keçəndən sonra qala gözətçiləri onların üzərinə gül-çiçək və reyhanlar yağdırdılar".

Bu məqamda misirlilərin və türk toplumunun eyni bir bitkinin məişətdə istifadəsi və ona yüklənən məna ilə bağlı yanaşmaları çox fərqlənir. Azərbaycan mətbəxinə nəzər yetirsək görərik ki, ətirli bir bitki növü olan reyhan göyərtisindən ancaq müəyyən içəcəklərin (şirə, ayran) və bəzi yeməklərin (badımcan dolması, doğramac) hazırlanmasında istifadə edilir. Hesab edirəm ki, ümumilikdə türk dünyası mətbəxində nanə daha çox uğur qazanıb, reyhan uduzur ona. Məsələn, desək ki ayran nanəlimi olsun, yoxsa reyhanlı? Nanə udar.

Badımcan dolmasında olan mövqeyini də reyhan Qarabağ zonasında uduzur nanəyə. Yəni ki, biz nə mətbəximizdə, nə də ki məişətimizdə önəm vermirik ona misirlilər qədər. Amma bizi birləşdirən cizgilər də az deyildir:

-Ahmos, ehtiyatlı olmalı olduğumuz düşmən hansıdır?

-Ümidsizlik...

Babası özündən çox bağlandığı kiçik nəvəsi Ahmosu özünə tərəf çəkib gülümsünərək soruşdu və oğlan o an dediyinin mənasını dərk etmədən cavab verdi. Hökmdar Sekenenra sevimli ölkəsini boyunduruqdan azad etmək üçün mübarizəyə getməzdən qabaq ailəsi ilə vidalaşmaq üçün öz xüsusi iqamətgahına yollandı. Ailə üzvlərini ətrafında əyləşdirdi və daxilindən axıb gələn şəfqət hiss etdi. Qəlbinə ən yaxın üzlərə baxmaqda davam etdi. Sanki, o, onları eyni bir üz kimi görürdü, aralarında yeganə fərq isə yaş fərqi idi. Lakin onlar arasında elə üz yox idi ki, orada qara gözlər parlamayaydı, üst tərəfi qabağa çıxmış həmin ağız olmayaydı, sağlamlıq və gözəllik rəmzi olan həmin şərab rəngli qarayanızlıq olmayaydı:

-Gəlin getməmişdən qabaq bir saat bir yerdə oturaq...Gəlin bir-birimizi bağrımıza basaq...

Bu məqamda türk toplumunun tarixin ən dərin qatlarına işləmiş köklərindən gələn, südlə gəlib sümüklə çıxan, qanımıza hopmuş, həm milli, həm bəşəri bir dəyər olan ailəyə, ailə bağlarına, ailə üzvlərinə olan münasibətimizdə düşüncələrimiz, duyğularımız birləşir. Bütün xoşbəxtliklərin mənbəyi və mənşəyi ailə xoşbəxtliyidir (Lev Tolstoy). Mehriban ailə, möhkəm ailə və doğmalıq bağları, isti ailə ocağında tapdığın sevgi, rahatlıq, hörmət və qayğı çox önəmli bir dəyərdir bu həyatda. Ailə üzvlərin sən həm uğurlara imza atanda, həm uğursuz olanda yanındadır, sevincinə sevinir, kədərinə şərik olur. Sən mələk deyilsən, sən mükəmməl deyilsən, insansan, səhvin olar, düzün olar. Amma ailən hər məqamda

yanındadırsa sənə zaval yoxdur.

Ailən səni olduğun kimi sevən, olduğun üçün sevinən, üstünlüklərinlə, çatışmazlıqlarınla qəbul eliyəndir. Həmişə müşahidə eləmişəm, alınmaz qala kimi möhkəm bir ailəyə sahib olan insanlar, düçar olduqları bədbəxtlik, uğursuzluq, ya haqsızlıqdan daha rahat çıxır, itmir, batmır. Amma bunun əksi olanda çox-çox daha çətin olur. Odur ki, əziz valideynlər, uşaqlarınızı sevgi ilə doyurun, onlara hər an hiss elətdirin ki, istənilən situasiyada yanlarındasınız. Çünki istər oğlan, istər qız uşaqlarının yol verdiyi bir çox səhvlər doğmaları ilə münasibətlərində olan bu kimi boşluqlardan qaynaqlanır. “Yer üzündə olan bütün səadət çöplərini dimdiyinizlə yığın, özünüzə həmişəlik bir yuva tikin (Yuvanı dişi quş yapar...“Oğuznamə”dən). Çünki siz həyatın qaranlıq, gizlin yerlərində bundan ayrı heç bir inci tapa bilməyəcəksiniz” (Viktor Hüqo).

“Bütün bəşəriyyət üçün məna kəsb edən, incəliklərlə zəngin ərəb hekayələrinə və realizmə görə” Nobel mükafatına layiq görülmüş ilk ərəb yazıcısı Nəcib Məhfuzun dörd romanını (“Məhəlləmizin hekayətləri”, “Liderin qətl günü”, “Möhtərəm cənab”) oxusam da məhz bu roman barədə yazmaq istəyi yarandı məndə. Çünki oxuduqca bəzi bənzər hissləri yenidən yaşadım, torpaqlarımızın işğal altında olan dövrləri, 44 günlük müharibə boyunca hiss elədiklərimizi. Firon döyüş meydanında öldürüldükdən sonra sərkərdə Pipinin ilk işi onun ailəsini qorumaq oldu, ələ keçməsinlər deyə onlar mümkün qədər tez bir zamanda buradan uzaqlaşmalı idilər. Çünki o, bilirdi ki, nə qədər ki fironun ailə üzvləri sağdırlar,

hiksoslar ilə mübarizə davam edəcək və illər sonra olsa belə, ölkənin azad edilməsinə, qələbəyə ümid var. İllərlə hazırlaşdıqları böyük bir mübarizədən sonra onlar öz ata-baba yurdlarına qovuşa bildilər. Böyük zəhmət, əzmkarlıq, itkilər hesabına qazanılan qələbədən sonra gəmi ilə Vətənə doğru yol aldılar. Doğma şəhərlərinə yaxınlaşarkən dayanmadan gözlərindən minnətdarlıq yaşları süzülürdü, dodaqları astadan “Fiv, Fiv” deyə pıçıldayırdı. Bu an kraliça Ahhotep titrək səslə dedi:

-Aman tanrım, bu divarları bir daha görəcəyimi təsəvvür etmirdim.. Eyni hissləri biz də otuz il boyunca həsrəti ilə ürəklərimizin bir yerdə vurduğu Şuşanın qala divarlarına qarşı keçirmədikmi?!

**Mina Rəşid**

# Yaxşılıq

Quşlara qoşulub nəğmə deyirəm
Budaqlar əl çalır, çiçəklər gülür.
Sular xəyalımı çəkib aparır,
Göy otlar qəlbimdən kədəri silir.

Günəş heç bilmir ki, təkəbbür nədir,
Elə təbəssümlə baxır üzümə.
Göyüzü tərtəmiz nur dənizidi
Min bir naxış vurur adi sözümə.

Sözümlə dünyanı qucaqlayıram
Dünya gülümsəyir doğma nəfəsdən.
Könlümdən pəncərə açdım yollara
Qəlbim azad oldu dar qəfəsindən.

Bircə təbəssümlə dəyişər insan
İntihar etməyi buraxıb gedər.
Sənə savab düşər, ona yaşamaq
Həyat dəyərlidir yaxşılıq qədər.

## Rana İslam Değirmencioğlu

# Ben Hep 'Birbaşınalık'ı Sevdim

Ben hep bir başınalığı sevdim
Daha kalem tutmadan ellerim
Kardeşime mama yaptım gürül gürül yanan sobada
İşte o gün bu gündür ateşi iyi belledim
Gün geldi yanan elimin ateşini ben külledim

Ben hep bir başınalığı sevdim
Bütün ev, bütün mahalle, bütün sokak
Elbette ki şehir ve şehirler de uyurken
Uyanıktı hasretle can bulan gözlerim
Sessizliği delip geçen yürek sızımın arasında
Dirseklerim penceremin pervazında
Yanıp sönen yıldızların şarkısına
Ritim tuttu şu nemli kirpiklerim
Tek başına o tılsımlı geceleri dinledim

Ben hep bir başınalığı sevdim
Çelik çomak oynadım Munzur'un kenarında
Tıpkı benim gibi minik yürekleri elinde
Yaramaz Ecelerle, Fatihlerle bir
Ağaçtan evim, tahta kılıcım
ve yapraklardan sedirim oldu
O uçsuz bucaksız bahçelerde
Cesur Sultanlardan biriydim ben de
Hem de birbaşına bir Emir
Günü geldi korkusuzca bıraktım kendimi
derenin soğuk sularına birden bire
Yüzdüm, yüzdüm, yüzdüm ve yüzdüm
Geçmişten geleceğe

Ben hep birbaşınalığı sevdim
Nehir kenarındaki çakıllarda
Yolun yanı başındaki mucurlarda
O sarp dağlardaki keçi yolunda
Koştum yalın ayak asırlarca
Düştüm, binlerce yüzbinlerce kez
Ve düştüğüm gibi de kalktım yerimden
Her defasında bir 'El' tuttu ellerimden
Rüzgâr öptü gözlerimden
Yürek okşadı başımı ve dedi ki
'Kalk ayağa, ilham al sözlerimden…'

Düştüğüm gibi kalktım yerimden…
Ağlamadım! Her seferinde daha güçlü
Rüzgâr yalayıp geçti gözlerimi
Nehrin suyunda yıkadım kanayan dizlerimi
Hep bir gülümseyişe sardım düşlerimi
Tuttum sımsıkı 'O El'i…
Tuttum ve kalktım yerden
Hiç yalnız kalmadım, hiç yalnızlık çekmedim
'El Yüreği Tutunca'
Kalktım, doğruldum ve yürüdüm…
Yürüdüm, yürüdüm, yürüdüm ve yürüdüm
Yürüdüm bir başına…

Ben hep 'bir başınalık'ı sevdim
Kalabalıklar arasında bile…
Herkesin susup sindiği bir anda
avaz avaz şarkımı söyledim
O tek şiiri ben yazdım ve ekledim kitabıma
Mesela halayın başını çektim, en yakınlarımın düğünlerinde
Su taşıdım çok kez; eli öpülesi bir yaşlının
abdest alması için onun yüzyıllara şahit olmuş güğümünde
Bir hastayı, bir çocuğu dinledim, saatler süren o yolculukta
Güneşi seyrettim, levhaları okudum; yola bağlanan güçlü ufukta
Halı kilim dokudum, mendil işledim
Dantel dantel ördüm düşlerimi geceden sabaha dek
Umut oldum, çare oldum, deva oldum her yaştan yüreğe
O yürekler ki üşümesin tek

Ben hep 'birbaşınalık'ı sevdim
Ağlasam da ben ağladım; gülsem de ben
Düşsem de ben düştüm; kalksam da ben
Sevsem de ben sevdim yürekten; terk edip gitmek varsa
o cesur, yine ben
O anı okuyup dillendirmekse deva;
Munzur'dan çıkıp gelen Ece ben.
Ben terledim, onlarca kişinin arasında çoğu zaman; biliyorum
Çünkü ben terlemeyi seviyorum.
Ben terlerken gülüyorum…
Zaman denen o fırında pişen ekmek, ben…
Ben pişerken büyüyorum…
Ben yanıldım, ben kızdım, ben aldandım.
Korkma benden; binlerce kişinin tomarına eş,
mânâsız bir yük değilim
Gün gelince yanan yolumun ateşini ben küllerim
Kâh yazımla kâh sözümle yollarımı ben dillerim

Meryem Küçük

# Rüzgârın Yaprakla Vuslatı

serçelerin sesinde davet
aşka davet , özgürlüğe davet
ay yenilendi gün bitmeden
perdeler rüzgârla gitti
ellerin savururken
sıcak mevsimlerin değişimini
bir burgu oyarken beni içime içime
ateşli oylumundan
derimimde bin çatlak
kavallara açılan yeni deliklerden
soluksuz kalan son türkü
pullardan yıldızlardan
bir sürükleniş
yanmış kavrulmuş toprak
benzi safran sarısı ağıtlardan
etten kemikten sıyrılış
kanınla dopdolu
yazgısına ortak
tutunmayı bıraktın sımsıkı
güne doğru
rüzgârın yaprakla vuslatı